**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 8 may - Şuşanın işğalı günü münasibətilə**

# B Ə Y A N A T I

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsini təşkil edən, beynəlxalq hüququn norma və prinsiplərinin kobud pozulması ilə nəticələnən, Azərbaycanın tarixi mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin işğalından on dörd il keçir.

Erməni millətçilərinin və onların havadarlarının dəfələrlə məqsədyönlü soyqırım, deportasiya və işğalçılıq siyasəti nəticəsində xalqımızın başına gətirilən müsibətlər tarixin dərin qatlarına gedib çıxır. Hələ XIX əsrin əvvəllərində Rusiya və İran arasında bağlanmış Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrindən sonra Azərbaycanın parçalanması prosesi başlanmış, xaricdən 10 minlərlə erməni köçürülərək Azərbaycanın tarixi torpaqları olan İrəvan quberniyasında, Naxçıvanda, Qarabağda, habelə digər bölgələrdə yerləşdirilmiş, beləliklə, bölgə əhalisinin etnik tərkibi məqsədli şəkildə ermənilərin xeyrinə dəyişdirilmişdir.

Təkcə ötən əsrdə xalqımıza qarşı yürüdülən bu mənfur siyasət nəticəsində azərbaycanlılar öz əzəli torpaqları olan İrəvan, Göyçə və Zəngəzuru itirmiş, Azərbaycan əhalisi dörd dəfə (1905-1907, 1918-1920, 1948-1953, 1988-1993-cü illərdə) erməni millətçiləri tərəfindən insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulması hallarına, qeyri-insani rəftarla, insan ləyaqətini alçaldan hərəkətlərlə müşayiət olunan etnik təmizləməyə və deportasiyaya məruz qalmışdır.

Törətdikləri cinayətlərə görə beynəlxalq səviyyədə heç bir ciddi sanksiyaya məruz qalmayan Ermənistan Respublikası öz çirkin əməlləri ilə kifayətlənməyərək daha da azğınlaşmış, işğalçılıq siyasətini davam etdirərək Azərbaycanın ərazilərini zəbt etmiş, insan hüquqlarını kütləvi şəkildə pozan çoxsaylı aksiyalar həyata keçirmişdir.

1988-ci ildə Ermənistan SSR Ali Soveti «Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında»" hüquqazidd qərar qəbul etdikdən sonra erməni silahlı birləşmələri tərəfindən Azərbaycan torpaqlarının işğalının yeni mərhələsi başlanmışdır. 1988-1994-cü illərdə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və onun ətrafındakı daha 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ermənistanın yürütdüyü bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdir ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalara görə, dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməli və onların ərazi bütövlüyünün, suverenliyin pozulmasına yolverilməməlidir.

BMT Baş Assambleyası tərəfindən 1974-cü il 14 dekabr tarixində qəbul edilmiş «Təcavüzün müəyyən edilməsinə dair» Qətnaməyə əsasən, təcavüz bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı tətbiq edilmiş silahlı güc və ya BMT Nizamnaməsi ilə bir araya sığmayan və bu təriflə müəyyən olunmuş hərəkətdir və heç bir hal siyasi, iqtisadi, hərbi və ya digər xarakterli olmasından asılı olmayaraq təcavüzə bəraət qazandıra bilməz. Təcavüzkar müharibə beynəlxalq sülh

əleyhinə cinayət olmaqla beynəlxalq məsuliyyət doğurur. Hər hansı bir ərazinin əldə edilməsi və ya təcavüz nəticəsində əldə edilən xüsusi qənimət qanuni sayılmır və heç bir halda sayıla bilməz.

Azərbaycanın ərazi bütövlüyü və Dağlıq Qarabağ ərazisi üzərində müstəsna yurisdiksiyası BMT, ATƏT, Avropa Şurası, habelə digər nüfuzlu beynəlxalq təşkilatlar və bütün dövlətlər tərəfindən dəfələrlə təsdiq edilmişdir. Lakin Ermənistan Respublikası beynəlxalq hüquq normalarına məhəl qoymaq istəmir və dünya birliyinin mövqeyi ilə hesablaşmır. Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilməsinə baxmayaraq Ermənistan işğal olunmuş torpaqları azad etmir.

Ermənistanın bəşəriyyət üçün təhlükə törədən əməllərinə dünya birliyi tərəfindən siyasi, hüquqi qiymət verilməməsi beynəlxalq hüquq normalarına saymazyana münasibətin davam etməsinə və yeni-yeni beynəlxalq cinayətlərin törədilməsinə gətirib çıxarır.

8 may 1992-ci il tarixdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Şuşa şəhəri Azərbaycanın ayrılmaz tərkib hissəsi olmaqla bərabər, respublikamızın tarixi mədəniyyət beşiyi sayılırdı. 289 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24900 əhali yaşamışdır. Şuşanın işğalı zamanı 193 nəfər şəhid, 102 nəfər isə əlil olmuşdur. Erməni işğalçıları tərəfindən 27 sənaye və tikinti obyekti, 103 mədəni - məişət obyekti, 31 şəhər, qəsəbə və kənd, 249 tarixi abidə və muzeylər, 17 tarixi abidə dağıdılmış və yandırılmışdır. 5 minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, minə yaxın eksponatı olan Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağara düşərgəsi, Xocalı rayonundakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin bənzərsiz eksponatları talan edilmişdir.

Məlumdur ki, xalqın milli sərvəti olan tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətlərin tənzimlənməsi hər bir dövlətin, o cümlədən beynəlxalq təşkilatların diqqət mərkəzində olan məsələlərdəndir.

Təsadüfi deyildir ki, tarix və mədəniyyət abidələrinin qorunması, bununla da insanların mədəni hüquqlarının təmini təkcə ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzim edilir. Tarix və mədəniyyət abidələri arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan binalar, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.

Ermənistan Respublikasının Azərbaycana təcavüzünün faciəli nəticələri təkcə Azərbaycan ərazilərinin zəbt edilməsi, milyona yaxın insanın qaçqına və məcburi köçkünə çevrilməsi ilə məhdudlaşmır. Azərbaycan xalqına qarşı Ermənistanda dövlət siyasəti səviyyəsinə qaldırılmış terror və soyqırımı siyasəti Azərbaycan tarixinə, mədəniyyətinə, xalqın dini əqidəsi ilə bağlı dəyərlərə də ağır zərbələr vurmuşdur.

Ermənistan Respublikası beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq bütün dünyanın gözü qarşısında Azərbaycanın mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir. Belə ki, Azərbaycan Respublikasının

işğal edilmiş ərazisində ölkə və dünya əhəmiyyətli 100.000-dən artıq mədəniyyət nümunəsi dağıdılmış və qəsb edilmiş, 500-ə yaxın tarixi və 100-dən çox arxeoloji abidənin, 22 muzeyin əksəriyyəti tamamilə və ya qismən dağıdılmışdır.

Maddi mədəniyyət abidələri ilə yanaşı, erməni millətçiləri ardıcıl və sistemli şəkildə Azərbaycan xalqının folklorunu, musiqisini, ədəbiyyatını və digər mənəvi sərvətlərini mənimsəməklə, əslində işğalçılıq müharibəsini mədəni sərvətlər müstəvisində genişləndirirlər.

Heç bir qanuna və mənəvi-əxlaqi meyarlara məhəl qoymayan erməni millətçiləri mövcud cəzasızlıq şəraitindən istifadə edərək Azərbaycan mədəniyyətinə qarşı mənəvi terroru bir qədər də dərinləşdirmişlər. Bunun nəticəsidir ki, erməni millətçiləri artıq Azərbaycanın tarixən mədəniyyət beşiyi olan Şuşa şəhərinin ətrafında yerləşən, bürünc dövrünə aid 200 məzarda arxeoloji qazıntılara başlamaqla beynəlxalq hüquq normalarına saymazyana münasibət göstərdiklərini bir daha nümayiş etdirirlər.

Belə ki, işğal olunmuş ərazilərdə arxeoloji qazıntıların aparılması beynəlxalq hüquqla qadağan edilmişdir. 16 dekabr 1966-cı il tarixli «İqtisadi, sosial və mədəni hüquqlar haqqında» Beynəlxalq Pakt, 14 may 1954-cü il tarixli «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» Haaqa və "Mənəvi dəyərlərin qeyri-qanuni olaraq ölkəyə daxil olması və ölkədən çıxarılması qadağası" haqqında Paris Konvensiyasları, 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası, 16 noyabr 1972-ci il tarixli YUNESKO-nun «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» Konvensiyası və digər beynəlxalq sənədlər tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, onlardan istifadə və ümumilikdə insanların mədəni hüquqlarının müdafiəsi ilə bağlı müddəaları təsbit edir. Tarixi abidələrin mühafizəsi bu beynəlxalq sənədlərlə tənzimlənməli olsa da erməni vandalizminin mənfur təmsilçiləri nüfuzlu beynəlxalq təşkilatların tələblərinə məhəl qoymayaraq, öz təcavüzkar siyasətlərini bu gün də davam etdirir, tarixi və maddi-mədəniyyət abidələrimizi vəhşicəsinə məhv edirlər.

Ermənilər işğal olunmuş Azərbaycan ərazilərində qəbirləri sökür, mərmər daşları, qəbirüstü abidələri daşıyırlar. İşğal zonasındakı meşələr, təbii abidələr də dağıdılır, ermənilər təbiətin incisi sayılan çinarlıqları məhv edir, onları doğrayıb aparırlar.

Hazırda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində ölkəmizin işğal altındakı ərazilərindəki tarixi memarlıq və mədəniyyət abidələrinin regionlar üzrə coğrafi xəritəsi hazırlanıb. Həmin xəritə və qarət edilmiş qədim mədəniyyət və incəsənət nümunələri, dağıdılan şəkil qalereyaları və muzeylər haqqında məlumatlar Avropa Şurasının münaqişə bölgəsinə səfər edən faktaraşdırıcı missiyasına təqdim ediləcək. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) olaraq bəyan edirəm ki, Ermənistan Respublikası və erməni millətçiləri tərəfindən Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqların işğalı, tarixi və mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi, insanların hüquqlarının, o cümlədən mədəni hüquqlarının kütləvi şəkildə pozulması hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə ziddir.

Deyilənləri nəzərə alaraq dünya birliyinə, mötəbər beynəlxalq qurumlara və dünya xalqlarına müraciət edərək Azərbaycana qarşı aparılan uzunmüddətli erməni təcavüzünə və soyqırımına son qoyulacağına, bu ağrılı münaqişənin sülh və danışıqlar yolu ilə aradan qaldırılmasına dəstək veriləcəyinə, işğal olunmuş torpaqların qaytarılacağına, qaçqına və məcburi köçkünə çevrilmiş yüz minlərlə soydaşımızın öz yurdlarına dönəcəyinə, onların pozulmuş hüquq və azadlıqlarının bərpa ediləcəyinə inanıram.

Ümid edirəm ki, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq mövqeyini dəstəkləyəcək, ədalət tezliklə öz yerini tapacaq, işğalçılığı, terroru və soyqırımı dövlət siyasətinin tərkib hissəsinə çevirən Ermənistan Respublikasına qarşı səlahiyyətli beynəlxalq qurumlar tərəfindən sanksiyalar tətbiq olunacaqdır.

İnanırıq ki, Siz Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın, ərazi bütövlüyünün, xalqın pozulmuş hüqüq və azadlıqlarının bərpa edilməsində bütün imkanlarınızı səfərbər etməklə yardımçı olacaqsınız.

**Elmira Süleymanova**
**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)**

Bakı şəhəri, 8 may 2006-cı il

**Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına, UNESCO-ya, Avropa Şurası və ATƏT-in Bakı ofislərinə və digər ünvanlara göndərilmişdir.**